| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 10.08.2009 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 437 |
| **ADI** | Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 11-08-2009, Nəşr nömrəsi: 175), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-08-2009, Nəşr nömrəsi: 08, Maddə nömrəsi: 645) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 010.000.000<br>120.000.000<br>430.000.000<br>440.000.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 01.07.2011 |

**Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:[1]

***Komissiyanın həmsədri***[2]

*Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri*[3]

***Komissiyanın üzvləri***

*Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini*
*Azərbaycan Respublikası xarici işlər nazirinin müavini*
*Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini*
*Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini*
*Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini*
*Azərbaycan Respublikası energetika nazirinin müavini*
*"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti*
*Azərbaycan Respublikasının Avstriya Respublikasında fövqəladə və səlahiyyətli səfiri.*

2. "Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 aprel tarixli 399 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, 4, II kitab, maddə 302; 2002-ci il, 5, maddə 301; 2005-ci il, 10, maddə 968) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi barədə Avstriya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 avqust 2009-cu il
437

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 8 fevral 2012-ci il tarixli **1994** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 12 fevral 2012-ci il, 034, "Azərbaycan" qəzeti, 18 fevral 2012-ci il, 039, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 102**)
2. 10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**)
3. 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 16 may 2014-cü il, 101** )
4. 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**)
5. 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027**)
6. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )
7. 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**)
8. 7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521**)
9. 5 may 2021-ci il tarixli **2624** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 6 may 2021-ci il, 95 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 5, maddə 461**)
10. 31 may 2022-ci il tarixli **3299** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 2 iyun 2022-ci il, 114** )


**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] 8 fevral 2012-ci il tarixli **1994** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 12 fevral 2012-ci il, 034, "Azərbaycan" qəzeti, 18 fevral 2012-ci il, 039, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 102**) ilə 1-ci hissəsində "**Fuad İsmayılov - Azərbaycan Respublikasının Avstriya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri** " sözləri "**Qalib İsrafilov - Azərbaycan Respublikasının Avstriya Respublikasında fövqəladə və səlahiyyətli səfiri**" sözləri ilə əvəz edilmişdir.

07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə 1-ci hissəsində "**Əli Abbasov**" sözləri "**Ramin Quluzadə**" sözləri ilə və "**Bəhram Əliyev**" sözləri "**Seyfəddin Talıbov**" sözləri ilə əvəz edilmişdir.

2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027**) ilə 1-ci hissədə "**rabitə və informasiya texnologiyaları naziri** " sözləri "**rabitə və yüksək texnologiyalar naziri** " sözləri ilə əvəz edilmişdir.

14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **"Azərbaycan" qəzeti 16 may 2014-cü il, 101** ) ilə 1-ci hissəsində "**iqtisadi inkişaf**" sözləri "**iqtisadiyyat və sənaye** " sözləri ilə əvəz edilmişdir.

7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521**) ilə 1-ci hissəyə "**rabitə**" sözündən əvvəl "**nəqliyyat,**" sözü əlavə edilmişdir.

27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**) ilə 1-ci hissəsində "**Sevinc Həsənova - Azərbaycan Respublikası iqtisadiyyat və sənaye nazirinin müavini**" sözləri "**Sahil Babayev - Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye nazirinin müavini** " sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 1-ci hissədən "**və sənaye** " sözləri çıxarılmışdır.

[2] 5 may 2021-ci il tarixli **2624** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 6 may 2021-ci il, 95 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 5, maddə 461**) ilə 1-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir:

əvvəlki redaksiyada deyilirdi:

~~**Komissiyanın həmsədri:**~~

| | |
|---|---|
| ~~*Ramin* ***Quluzadə***~~ | ~~– Azərbaycan Respublikasının *nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri*~~ |

~~**Komissiyanın üzvləri:**~~

| | |
|---|---|
| ~~Xələf **Xələfov**~~ | ~~– Azərbaycan Respublikası xarici işlər nazirinin müavini~~ |
| ~~İlqar **Fətizadə**~~ | ~~– Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini~~ |
| ~~Sahil **Babayev**~~ | ~~– Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye nazirinin müavini~~ |
| ~~*Seyfəddin* ***Talıbov***~~ | ~~– Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini~~ |
| ~~İntiqam **Babayev**~~ | ~~– Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini~~ |
| ~~Gülməmməd **Cavadov**~~ | ~~– Azərbaycan Respublikası energetika nazirinin müavini~~ [2] |
| ~~Sabir **İlyasov**~~ | ~~– "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti~~ |
| ~~Qalib **İsrafilov**~~ | ~~– Azərbaycan Respublikasının Avstriya Respublikasında fövqəladə və səlahiyyətli səfiri~~ |

[3] 31 may 2022-ci il tarixli **3299** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 2 iyun 2022-ci il, 114**) ilə 1-ci hissədə "**nəqliyyat, rabitə və yüksək texnologiyalar**" sözləri "**rəqəmsal inkişaf və nəqliyyat**" sözləri ilə əvəz edilmişdir.